DOI: 10.36719/AEM/2007-2020/54/65-68

**Xalıq Yusif oğlu Dadaşzadə**
Bakı Dövlət Universiteti
dadaszade.xaliq@gmail.com

# ƏDALƏTLİ MƏHKƏMƏ ARAŞDIRMASI HÜQUQU VƏ BU ÇƏRÇİVƏDƏ DİSTANT DİNDİRMƏ ÜSULUNUN QİYMƏTLƏNDİRİLMƏSİ

***Açar sözlər:*** *ədalətli məhkəmə araşdırması hüququ, müdafiə hüququ, müdafiə hüququnun məhdudlaşdırılması*
***Key words:*** *right to a fair trial, right of defense, restriction of right to defense*
***Ключевые слова:*** *право на справедливое судебное разбирательство, право на защиту, ограничение права на защиту*

Müasirimizdə elmi-texniki tərəqqi insan fəaliyyətinin bütün sahələrinə, o cümlədən cinayətlərin istintaqı və məhkəmə proseslərinə siraət etmişdir. Müasir texnologiyaların imkanlarından istifadə etməklə şahidin, zərərçəkmiş şəxsin, təqsirləndirilən şəxsin distant dindirilməsi üsulundan həm məhkəməyəqədər dövrdə, həm də məhkəmə dövründə istifadə edildiyini görürük. Distant dindirmə, ilk əvvəllər şahidin və ya zərərçəkmiş şəxsin təhlükəsizliyini təmin etmək və ya məhkəmə prosesi zamanı təqsirləndirilən şəxsin onlara təzyiqini ən aza endirmək, habelə ölkənin digər ucqar ərazisində həbsdə olan təqsirləndirilən şəxsin və ya məhkumun köçürülməsinin təhlükəli olması halları üçün nəzərdə tutulurdu. Lakin sonradan distan dindirmədən və ya təqsirləndirilən şəxsin səs və video əlaqəsi ilə məhkəmə prosesinə qoşulması zəruri halların olub-olmaması əsaslandırılmadan tətbiq edilmiş və bu üsulun təqsirləndirilən şəxsin Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı maddəsində təsbit edilmiş ədalətli məhkəmə araşdırması hüququnun pozuntusu hesab edilib-edilməməsi geniş müzakirə edilmişdir.

Distant dindirmənin mahiyyəti ondan ibarətdir ki, dindirməni həyata keçirən şəxs (müstəntiq və ya hakim) bir məkanda, dindirilən şəxs isə (şahid, zərərçəkmiş şəxs, şübhəli və ya təqsirləndirilən şəxs) başqa məkanda, bəzən hətta başqa dövlətdə olur və texnologiyanın imkanlarından istifadə olunaraq onlar arasında səsli və görüntülü əlaqə qurulur və dindirmə də məhz həmin əlaqə vasitəsi ilə həyata keçirilir. Düşünürük ki, distant dindirməni təkcə aidiyyəti şəxsin ifadəsinin alınması kimi deyil, həm də distant ibtidai və ya məhkəmə istintaqının tərkib hissəsi kimi nəzərdən keçirilməlidir. Məsələn, məhkəmə istintaqı zamanı təqsirləndirilən şəxs səs və video əlaqə vasitəsi ilə dindirilməklə yanaşı, öz növbəsində təqsirləndirilən şəxs də öz prosessual hüquqlarından istifadə etməklə, onun əleyhinə ifadə vermiş şəxslərə sual verə, habelə sübutların qiymətləndirilməsində iştirak edə bilər və s.

Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində distant dindirmə istintaq hərəkətinə dair hər hansı maddə mövcud deyildir. Lakin bir çox dövlətlərdə, məsələn Rusyada, Türkiyədə, Ukraynada, Qazaxıstanta və s. distant dindirmə cinayət-prosessual qanunlarında tənzimlənmişdir. Distant dindirmə və ya səsli və görüntülü əlaqə sistemi işin ağlabatan müddətdə həll edilməsinin təmini, məhkəmə xərclərinin azaldılması baxımından sərfəli olduğu qədər, cinayət-prosessual hüququn bəzi prinsipləri və ədalətli məhkəmə araşdırması hüququnun tələbləri baxımından yetərsiz qaldığını demək olar.

**"İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın** 6-cı maddəsinin 3-cü bəndinin "c" yarımbəndinə əsasən, cinayət törətməkdə ittiham olunan hər kəs "**şəxsən** və ya özünün seçdiyi müdafiəçi vasitəsi ilə özünü müdafiə etmək və ya müdafiəçinin xidmətini ödəmək üçün vəsaiti kifayət etmədiyi zaman, ədalət mühakiməsinin maraqları tələb etdikdə, belə müdafiədən pulsuz istifadə etmək" hüququna malik olmalıdır. [1] Bu maddə özünü müdafiə hüququnun təmini üçün təqsirləndirilən şəxsə, şəxsən müdafiə, özünün seçdiyi müdafiəçinin köməyindən faydalanma və müəyyən şərtlər olduqda pulsuz müdafiəçinin köməyindən yararlanma haqqı vermişdir.

Hər nə qədər Avropa Konvensiyasında sübhəli və ya təqsirləndirilən şəxsin məhkəmə prosesində şəxsən iştirak etmək hüququ açıq şəkildə qeyd edilməsə də, onun özünü müdafiə hüququnu şəxsən istifadə edə bilməsi, ancaq bu şəkildə mümkün olacaqdır. Ona görə də, şübhəli və ya təqsirləndirilən şəxs öz müdafiəsini şəxsən gerçəkləşdirmə hüququna malik olmaqla, bu hüquqdan istifadə edə bilməsi üçün onun məhkəmə prosesində şəxsən iştirak etməsi gərəkdir. Habelə, bu hüququn şübhəli və ya təqsirləndirilən şəxsin müdafiəçinin köməyindən şəxsən yararlamaq imkanı da nəzərə tutduğunu nəzərə alsaq, distant dindirmənin və ya səs və görüntülü əlaqə sistemi vasitəsi ilə prosesə qoşulmanın bu hüququ məhdudlaşdırdığı açıq aydındır. Şübhəli və ya təqsirləndirilən şəxsin məhkəmə prosesində şəxsən iştirakı xüsusilə onun müdafiəçinin köməyindən birbaşa yararlana bilməsinə də imkan verir. Belə ki, Avropa Konvensiyasının 6-cı maddəsinin 3-cü bəndinin "b" yarımbəndinə əsasən, cinayət törətməkdə ittiham olunan hər kəs, "**öz**

**müdafiəsini hazırlamaq üçün kifayət qədər vaxta və imkana malik olmaq"** hüququna malik olmalıdır. Cinayət törətməkdə ittiham olunan şəxs isə, öz müdafiəsini hazırlamaq üçün ilk növbədə iş materialı ilə tanış olmalıdır ki, məhkəmə prosesinə distant qoşulmuş şəxs belə imkandan məhrum olur.

Habelə, Avropa Konvensiyasının 6-cı maddəsinin 3-cü bəndinin "d" yarımbəndinə əsasən, cinayət törətməkdə ittiham olunan hər kəs, "**onun əleyhinə ifadə vermiş şahidləri dindirmək və ya bu şahidlərin dindirilməsi hüququna malik olmaq və onun əleyhinə ifadə vermiş şahidlər üçün eyni olan şərtlərlə onun lehinə olan şahidlərin çağırılması və dindirilməsi hüququna malik olmaq"** hüququna malik olmalıdır. Göründüyü kimi, təqsirləndirilən şəxsin məhkəmədə iştirak etmək haqqı ədalətli məhkəmə araşdırması hüququnun və özünü müdafiə hüququnun əsas tələblərindəndir.

Təqsirləndirilən şəxsin məhkəmə prosesində iştirakının təmin olunması onun öz müdafiəsini həyata keçirə bilməsi, məhkəmə prosesində ona irəli sürülən ittihamları təkzib edə bilməsi və cəzanın fərdiləşdirilməsi ilə əlaqədar olaraq hakimin sağlam qərar verməsi, habelə hakimin diskresion səlahiyyətlərindən istifadə edə bilməsi baxımından önəmlidir. [2, s.96]

Xüsusilə, şübhəli və ya təqsirləndirilən şəxsin azadlığının məhdudlaşdırılması ilə nəticələnə biləcək məhkəmə prosesində birbaşa müdafiəsini edə bilməsi, aktiv şəkildə prosesə qoşulması, sübut təqdim etməsi və sübutların qiymətləndirilməsində iştirakı onun maraqları baxımından əhəmiyyətli olduğu aşkardır. [3, s.209]

Təqsirləndirilən şəxsin məhkəmədə iştirak etməsi onun hüququ olduğu qədər, həm də vəzifəsi olduğunu deyə bilərik. Məsələn, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 311.5-ci maddəsinə əsasən, təqsirləndirilən şəxs üzrlü səbəblər olmadan məhkəmə iclasına gəlmədikdə o, məhkəmənin qərarı əsasında məhkəmə iclasına məcburi gətirilə bilər və bu Məcəllə ilə nəzərdə tutulmuş əsaslar olduqda, onun barəsində qətimkan tədbiri seçilə bilər və ya seçilmiş qətimkan tədbiri daha ağırı ilə əvəz edilə bilər. Təqsirləndirilən şəxsin iştirakı olmadan məhkəmə baxışına isə yalnız AR CPM-in 311.2-ci maddəsində göstərilmiş müstəsna hallarda yol verilir. [4] Göründüyü kimi, təqsirləndirilən şəxsin məhkəmə prosesində iştirakının təmin edilməsi həm də məhkəmənin vəzifəsidir. Bu baxımdan, təqsirləndirilən şəxsin məhkəmə prosesində şəxsən iştirakının mümkün olmadığı və ya zəruri olan digər hallarda onun distant dindirilməsi və ya məhkəmə prosesinə distant qoşulması cinayət mühakimə icraatının davamlılığının təmin edilməsi üçün effektli üsuldur. Digər tərəfdən, bu üsul işin ağlabatan müddətdə həll edilməsi hüququnun təmini baxımından da əhəmiyyətlidir. Avropa Konvensiyasının 6.1-ci maddəsinə əsasən, hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsilə, **ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir.**

**Marcello Viola İtaliyaya qarşı** qərarında Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) səsli və görüntülü əlaqə sistemi vasitəsi ilə təqsirləndirilən şəxsin məhkəmə prosesində iştirakına münasibət bildirmişdir. Adı çəkilən qərara görə, ərizəçi Avropa Konvensiyasının 6-cı maddəsinə əsasən, ədalətli məhkəmə araşdırması hüququnun pozulması ilə əlaqədar AİHM-ə müraciət etmişdir. Ona görə ki, ərizəçi **razılığı olmadığı halda** apelyasiya məhkəməsinin üç prosesində distant şəkildə iştirak etmişdir. AİHM belə qərara gəlmişdir ki, ərizəçi cinayətkar birliyin üzvü olduğundan onun köçürülməsi zamanı qaçırılması, mafiya ilə təkrar əlaqə qura bilməsi ehtimalı, habelə mafiyanın üzvü olduğundan şahid və zərərçəkmiş şəxslərə təzyiq göstərmək imkanı müstəsna hallar hesab edildiyindən ərizəçinin məhkəmə prosesinə gətirilməməsi məqbul hesab edilməklə ərizəçinin ədalətli məhkəmə araşdırması hüququ pozulmamışdır. Habelə, məhkəmə ərizəçinin müdafiəçisi ilə üçüncü şəxslər tərəfindən dinlənilmədən görüşməsi hüququnun təmin edildiyi qənaətinə gəlmişdir.[5]

Səsli və görüntülü əlaqə sistemi vasitəsi ilə təqsirləndirilən şəxsin məhkəmə prosesinə qoşulması onun müdafiə hüququnun həyata keçirilməsi baxımından problem yarda bilər. Bağlantı zamanı səs və görüntünün kəsilməsi, tez-tez pozulması hər iki tərəf üçün ifadələrin anlaşılmazlığına və təqsirləndirilən şəxsin özünü tam ifadə edə bilməməsinə səbəb olacaqdır. AİHM texniki problemlərə baxmayaraq aparılan mühakimənin Avropa Konvensiyasının 6-cı maddəsinin pozuntusu hesab edilməsinə Marcello Viola İtaliyaya qarşı qərarında münasibət bildirmişdir. Məhkəməyə görə, bağlantıda problemlərin olması gözləniləndir, bu problemin ədalətli məhkəmə araşdırması hüququnun pozuntusu hesab edən tərəf bunu məhkəmə prosesi zamanı bildirməlidir. Həmin qərarda məhkəmə ərizəçinin bu barədə etirazının məhkəmə prosesinin heç bir mərhələsində verilməməsinə diqqət çəkmişdir.

## Nəticə

Distant dindirmə və ya səs və video görüntülü əlaqə vasitəsi ilə məhkəmə prosesinə qoşulmanın həm müsbət, həm də mənfi tərəfləri vardır. Müsbət tərəfləri kimi, təqsirləndirilən şəxsin məhkəmədə iştirak etməsi onun hüququ olduğu qədər, həm də vəzifəsi olduğundan, habelə onun məhkəmə baxışında iştirakını təmin etmək məhkəmənin vəzifəsi olduğundan müstəsna zəruri hallarda onun distant dindirilməsi və distant şəkildə məhkəmə prosesinə qoşulması effektli həll yoludur. Bu üsul həm də işin ağlabatan müddət ərzində baxılmasının təmini və məhkəmə xərclərinin azaldılması baxımından sərfəlidir. Mənfi tərəfləri kimi isə, distant ibtidai və ya məhkəmə istintaqının şübhəli və ya təqsirləndirilən şəxsin özünü şəxsən müdafiə, sübutların qiymətləndirilməsində şəxsən iştirak etmə və s. prosessual hüquqlarının məhdudlaşdırılmasına səbəb olmasını, habelə, faktiki olaraq müdafiəçinin köməyindən birbaşa yararlanma, iş materiallarını öyrənmə, sübut təqdim etmə hüquqlarından demək olar istifadə edə bilməməsini göstərə bilərik. Ona görə də, nəticəyə gəlirik ki, AİHM-in mövqeyinə, çəkişmə və bilavasitəlik prinsiplərinə də uyğun olaraq, habelə onun özünü aktiv şəkildə müdafiə hüququnun təmini baxımından təqsirləndirilən şəxsin distant dindirilməsi istisna qayda kimi tətbiq edilməlidir. Həm ibtidai araşdırma, həm də məhkəmə mərhələsində distant dindirmə əsaslandırılmış qərar əsasında həyata keçirilməlidir. Bununla bağlı aidiyyəti şəxsin fikri soruşulmalı və distant dindirmə ilə bağlı qərardan məhkəməyə şikayət vermək mümkün olmalıdır.

İbtidai istintaqda distant dindirmə, məhkəmə istintaqı zamanı distant dirmədən öz prosessual əhəmiyyətinə görə fərqləndiyindən, ibtidai istintaqdan fərqli olaraq məhkəmə nəzarətinin və məhkəmə baxışının distant şəkildə həyata keçirilməsi daha həssas məsələdir. Habelə nəzərə almaq lazımdır ki, ibtidai araşdırma zamanı şübhəli və ya təqsirləndirilən şəxs passiv prosessual şəxsdir. Lakin "Avropa Konvensiyasının 6-cı maddəsində sadalanan hüquqlar məhkəmə mərhələsinə aiddir" demək də doğru yanaşma olmayacaqdır. Çünki Avropa Konvensiyasının 6-cı maddəsi geniş şərh olunmaqla həm məhkəməyəqədər, həm də məhkəmə mərhələsinə aid hüquqları təsbit etdiyi qəbul edilməlidir. Belə şərh həm də insan hüquqlarının təbiətindən irəli gəlir.

## Ədəbiyyat

1. "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın və onun 1, 4, 6 və 7 saylı Protokollarının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu http://www.e-qanun.az/framework/1405
2. Müberra Öztürk, Hükuka kesin aykırılık hali olarak savunma hakkının kısıtlanması (2019), Yüksek lisans tezi,https://www.google.com/url?sa=t&source=web&rct=j&url=http://nek.istanbul.edu.tr:4444/ekos/TEZ/ET000631.pdf&ved=2ahUKEwiHy_D_wrPpAhUAAhAIHaH6A8oQFjAAegQIARAB&usg=AOvVaw1U4Iq2ZNbycEiVSgkGJwz_
3. Karakehya, Hakan, Avrupa İnsan Hakları Sözleşmesi'nin 6. Maddesi (Adil yargılanma hakkı) bağlamında ceza muhakemesinde duruşma, Anadolu Universitesi Sosial Bilimler Enstitüsü, Doktora tezi, Eskişehir (2007) https://earsiv.anadolu.edu.tr/xmlui/handle/11421/9653?locale-attribute=en
4. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsi http://www.e-qanun.az/code/14
5. Viola v. İtalyaya qarşı, No:45106/04, 05.10.2006, Qərarın Türkçə tərcüməsi üçün bax. Veli Kafes Viola v. İtalyaya qarşı qərarın təhlili http://docplayer.biz.tr/3731340-Marcello-viola-v-italya-karar-incelemesi.html, sonuncu baxış 01.05.2020

## The right to a fair trial and the assessment of the method of remote interrogation in this context

**Summary**

In this study, first, definition and importance of the right to appear in court or right to defence later on, in this content the method of remote interrogation will be discussed. This method is useful about providing the judgement in a reasonable time and to decrease the judgement budget. Despite the advantages of the method, it has some disadvantages on some principles of criminal procedure law. The right to defense is a compenent of the right to fair trial, which is adopted by the European Convention on Human Rights. Within this framework, restriction of the right to appear in court in the (or right to defense) criminal procedure law is regulated as the absolute ground for violating.

**Право на справедливое судебное разбирательство и оценка метода дистанционного допроса в этом контексте**

**Резюме**

В этом исследовании, во-первых, определение и важность права появляться в суде или права на защиту в дальнейшем, в этом содержании будет обсуждаться метод дистанционного допроса. Этот метод полезен для предоставления решения в разумные сроки и для уменьшения бюджета решения. Несмотря на преимущества метода, он имеет некоторые недостатки по некоторым принципам уголовно-процессуального права. Право на защиту является составной частью права на справедливое судебное разбирательство, которое принято Европейской конвенцией о правах человека. В этих рамках ограничение права на участие в суде в (или праве на защиту) уголовно-процессуального закона регулируется как абсолютное основание для нарушения.

**Rəyçi: dos. D.Məmmədova**

Göndərilib: 16.05.2020 Qəbul edilib: 19.05.2020